# Goranboy: aqrar sahəyə diqqət əhalinin firavanlığına böyük təsir göstərir

**Mən Goranboyun inkişafı naminə və rayonun problemlərinin həlli üçün əlimdən gələni əsirgəməyəcəm.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**



Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər regionlarda sahibkarlığın inkişafını sürətləndirmiş, əmək ehtiyatlarından, təbii resurslardan kifayət qədər səmərəli istifadəyə imkan vermiş, iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır. Azərbaycanın hər bir guşəsində aparılan abadlıq, tərəqqi və yüksəliş, qədim Oğuz yurdu Goranboy rayonunda daha qabarıq görünür. Rayonda həyata keçirilmiş çoxsahəli tədbirlər həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə diqqəti çəkir. Aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri, sözün əsl mənasında təqdirəlayiqdir. Yeni müəssisələr yaradılmış, məktəblər, bağçalar, müalicə ocaqları tikilmiş, əsaslı surətdə təmir olunmuş, yeni yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, gözoxşayan park və istirahət mərkəzləri, milli ornamentlərlə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi gözəllik verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna daim diqqət və qayğısı, rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyevin apardığı məqsədyönlü, ardıcıl tədbirlər, qədirbilən goranboyluların qurub-yaratmaq əzmini daha da gücləndirmişdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramında Goranboy ilə bağlı nəzərdə tutulan tədbirlərin uğurlu icrası rayon əhalisinin sosial rifahının yaxşılaşmasına da olduqca müsbət təsir edib.



Dövlət başçısının Goranboya hər səfəri, ictimaiyyətin nümayəndələri ilə görüşləri, həmçinin verdiyi tapşırıq və tövsiyələr yeni uğurların qazanılmasında təkanverici amilə çevrilir. Bunun nəticəsidir ki, başa çatmaqda olan 2016-cı il də Goranboy və onun sakinləri üçün böyük nailiyyətlər ili kimi tarixə yazılacaq.

2015-ci ilin ölkəmizdə "Kənd təsərrüfatı ili" elan edilməsi iri kənd təsərrüfatı rayonlarından biri olan Goranboyda da uğurlu nəticələrlə yadda qalmışdır. Təqdirəlayiq haldır ki, Goranboyun inkişafı ilə bağlı rayon rəhbərliyinin həyata keçirdiyi tədbirlər əhali tərəfindən böyük razılıqla qarşılanır. Böyük öndər Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında müasir memarlıq üslubunda inşa edilmiş 3 mərtəbəli 4000 kvadratmetr sahəsi olan möhtəşəm Heydər Əliyev Mərkəzinin qarşısında ümummilli liderin əzəmətli abidəsi sakinlərin ziyarətgahına çevrilmişdir. Mərkəzin ərazisində quraşdırılmış işıqlandırma sistemi, yaşıllıq zolaqlarının arasından boylanan gül-çiçəklər, dekorativ ağaclar və gül kolları mədəniyyət-istirahət parkına xüsusi gözəllik verir. Goranboy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və dəstəyi ilə Heydər Əliyev Mərkəzində məktəblilərin vətənpərvərlik, milli-mənəvi dəyərlərin təbliği və asudə vaxtlarının səmərəli təşkili, əlavə biliklərə yiyələnmələri məqsədilə kompüter kursları, rəsm, əl işləri (muncuqlarla) dərnəkləri, ingilis, rus dili kursları da fəaliyyət göstərir. Bu dərnək və kurslar şagirdlərdə böyük maraq doğurmuşdur. Heydər Əliyev Mərkəzi fəaliyyətə başladığı gündən bu günə kimi mütəmadi olaraq şəhər və kənd məktəblərinin, pedaqoji kollektivlərin, uşaq bağçalarının, idarə, müəssisə və təşkilatların cədvəl üzrə muzeyə ekskursiyaları təşkil edilir.

Eyni zamanda Böyük Vətən Müharibəsində və Qarabağ uğrunda gedən döyüşlərdə həlak olanların xatirəsinə ucaldılmış Abidə Kompleksi gənclərin və məktəblilərin qəhrəmanlıq simvoluna çevrilmişdir. Burada dekorativ ağaclar və fontanlar və abidə önünə qoyulmuş daimi alovlanan məşəl cəlbedici kompozisiya təşkil edir. Bundan başqa dahi Azərbaycan şairi Nizami Gəncəvinin adına salınmış 4 hektar sahəsi olan istirahət parkı şəhərə gələn qonaqları məftun edir. Parkda əhalinin və şəhərə gələn qonaqların istirahəti üçün təşkil olunmuş əyləncə yeri, gözoxşayan füsunkar "Şəlalə" kompleksi hər bir vətəndaşa ruhi qida verir. Burada, 4000 kvadratmetr sahədə salınmış qazonlar arasına, xaricdən gətirilərək əkilən dekorativ ağaclar və gül kolları, qışın oğlan çağında zövqlə əkilmiş gül-çiçək hər bir kəsi ayaq saxlamağa məcbur edir. Xüsusi gecə görüntüsü yaradan işıqlandırma sistemi sakinlərin könlünü oxşayır. Bəli, ölkənin inkişafı və tərəqqisi vətəndaşların rahatlığına tuşlanmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin Goranboya növbəti səfəri zamanı dediyi "Mən inanıram ki, Goranboy rayonu bundan sonra da davamlı inkişaf edəcək" kəlamı bu gün reallığa çevrilmişdir. Məhz bu inkişafın bariz nümunəsidir ki, rayona turist axını yüksəlmişdir. Turizm üçün əlverişli olan əsrarəngiz təbiəti olan Gülüstan ərazisində beynəxalq standartlara cavab verən 2 füsunkar turizm-istirahət mərkəzi fəaliyyət göstərir. İlk öncə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq rayonun zəngin turizm potensialını nümayiş etdirmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi ilə Avropa Birliyi arasında bağlanmış müqaviləyə əsasən rayonda turizm üçün əlverişli olan ərazilərin xəritəsi hazırlanmış, həmin ərazilərin turizm zonası elan olunması üçün aidiyyəti dövlət qurumlarına təqdim olunmuşdur. Artıq turizm-istirahət mərkəzlərində minlərlə insan dincəlir, xoş təəssüratla ayrılırlar. Abadlıq və quruculuq işləri də diqqəti cəlb edir. Şəhərin Heydər Əliyev prospektinə, İ.İsmayılov, Nizami, A.Məmmədov, Dədə Qorqud, Şəhriyar və Əsgərağa Gorani küçələrinə, Heydər Əliyev prospektində 8 saylı, C. Cabbarlı küçəsində yerləşən beş mərtəbəli və 2 mərtəbəli yaşayış binalarının həyətinə, xəstəxanadan Qarasüleymanlı kəndinə gedən yola sakinlərin rahatlığı üçün 11 min 892 kv.m asfalt örtük salınmışdır. S.Civəzadə küçəsində 3, 5, 7, 9, 11, 13, 15, 9a, Vidadi küçəsində 55, 57 saylı, H.Əliyev prospektindəki 8 saylı yaşayış binalarının fasad hissələri və blokları təmir edilərək müasir görkəmə salınmışdır. Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün əlavə olaraq beş ədəd fərdi evin tikintisi sürətlə aparılır. Şərq-Qərb İdarəetmə İnstitutu tərəfindən həyata keçirilən SEDA layihəsi çərçivəsində ilin ötən dövründə Goranlı kəndində tibb məntəqəsi və Elektron Kitabxana, Əzizbəyov kəndində həkim məntəqəsi tikilmişdir. Bu təşkilatın maliyyə dəstəyi ilə Fəxralı kəndində 12 km içməli su xəttinin və 80 bulağın tikintisi layihəsinin icrasına başlanılmış, artıq 10 km su xətti çəkilmiş, 40 bulaq tikilmişdir, hazırda işlər davam edir. İş adamı tərəfindən Xoylu kənd uşaq bağçası əsaslı təmir edilmiş, həyətdə uşaq oyun meydançası quraşdırılmışdır.




Son 6 ildə rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazası xeyli dərəcədə möhkəmləndirilmiş, 24 məktəb, 2 əlavə tədris korpusu inşa edilmiş, 10 məktəb isə əsaslı təmir edilmişdir. Hazırda rayonun ümumtəhsil məktəblərinin 85 faizinin maddi-texniki bazası müasir tələblərə cavab verir. Ölkə Prezidenti cənab İlham Əliyev 2016-cı ilin yanvarında "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr edilmiş konfransda pambıqçılığın inkişaf etdirilməsi ilə əlaqədar çox ciddi vəzifələr müəyyənləşdirdi. Qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə rayonda qısa müddətdə qərargah yaradıldı, şirkətlərlə, aidiyyəti xidmət təşkilatları ilə birgə əlaqəli iş quruldu. Bunun da nəticəsində cari ildə təxminən 2 min hektar sahədə pambıq, 6 hektar sahədə tütün əkildi, 500 hektar sahədə meyvə bağı salındı ki, 3000 nəfərədək işçi mövsümi işlə təmin olunmuşdur, gələn ildə isə ikiqat həcmdə pambığın becərilməsi nəzərdə tutulmuşdur. Pambığın gəlirli sahə kimi inkişaf etdirilməsi rayonda əlavə iş yerlərinin açılmasına və əhalinin yüksək maaşlı işlə təmin olunmasına imkan yaradacaqdır. Prezident İlham Əliyev cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib: "Pambıqçılıqla bağlı işlər uğurla gedir. Sabirabad rayonunda müşavirə keçirildi. İndi 24 rayonda pambıqçılığın inkişafı uğurla gedir. Bu il 100 min ton pambıq tədarük edilməlidir, gələn il 250-300 min ton, ondan sonrakı illərdə daha da çox. Biz çalışmalıyıq ki, sovet dövrünün ən yaxşı illərində istehsal etdiyimiz səviyyəyə yavaş-yavaş yaxınlaşaq. Bu, iş yerləri deməkdir".

Artıq qış mövsümü başlamışdır. Sakinlərin rahatlığı üçün bütün idarə və müəssisələrdə, infrastrukturlarda hazırlıq işləri qənaətbəxşdir.

Eyni zamanda Mədəniyyət və Turizm Nazirliyinin lisenziyası əsasında müasir tələblərə cavab verən 4 müasir, beynəlxalq standartlara cavab verən yaraşıqlı otel fəaliyyət göstərir ki, şəhərə gələn qonaq və turistlərin xidmətində layiqincə durur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar çərçivəsində ölkəmizin müxtəlif guşələrindən rayona gələn məktəblilər qədim oğuz yurdunun çox zəngin və əhəmiyyətli tarixi-memarlıq abidələri və füsunkar gözəlliyi ilə hamını valeh edən Gülüstan ərazilərində olmuşlar. Eyni zamanda tur-aksiya çərçivəsində rayonun 40 nəfər fəal şagirdi Quba, Qusar rayonlarında və Xaçmaz şəhərində olmuş, tarixi abidələr, adət-ənənələr, muzeylərlə tanış olmuş, ölkəmizin sosial-iqtisadi inkişafını əyani şəkildə görmüş, bir daha Azərbaycanın çox qədim və zəngin tarixə malik olduğundan fərəh duymuşlar. Tur-aksiya çərçivəsində məktəblilər ekskursiyaya Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı Qəsəbədən başlayıblar. Sonra onlar Cümə məscidinə gəliblər. 1802-ci ildə nəfis memarlıq üslubunda olan məscid onlarda böyük maraq doğurmuşdur.

Sonra məktəblilər şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini müşahidə ediblər. Quba Soyqırımı Memorial Kompleksini və ərazidəki kütləvi məzarlığı ziyarət edən tur-aksiya iştirakçılarına ermənilərin ötən əsrin əvvəllərində törətdikləri soyqırımı haqqında ətraflı məlumat verilmişdir. Məktəblilər eyni zamanda Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə baş çəkiblər.

Sonra onlar "Rixos Quba Azerbaijan" otel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə tanış olublar. Qusardakı Dövlət Bayrağı Meydanında böyük qələbəlik yaşanmışdır. Ətrafdakı, bütün zövqlə qurulmuş kompozisiyalar məktəblilərdə olduqca yüksək əhval-ruhiyyə və xoş təəssürat yaratmışdır.



Rayonun girəcəyində təhsil şöbəsinin qarşısındakı yol dairəsində son dərəcə diqqəti cəlb edən, xüsusi dizaynla işlənmiş saat qülləsi, zövqlə əkilmiş gül-çiçək, yaraşıqlı işıqlandırma sitemi rayona gələn qonaqların könlünü oxşayır. Yeni müasir standartlara uyğun, sərnişinlərin rahatlığı üçün yüksək dizaynla tikilmiş avtovağzal əhaliyə yetərincə xidmət edir. Ümumiyyətlə, rayonda regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramları uğurla icra edilir. İqtisadi sahədə qazanılan nailiyyətlər əhalinin sosial vəziyyətinin yüksəlməsinə, firavanlığına yönəldilir.

Bəli, bu gün Goranboy tərəqqi yolundadır. Bu inkişaf təkcə rayonun simasını deyil, həm də sakinlərin həyat tərzini, sosial-iqtisadi vəziyyətini xeyli yüksəltmişdir. Vurğulamaq lazımdır ki, əməksevər goranboylular ulu öndər Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da inkişaf edib qüdrətlənməsinə öz töhfələrini əsirgəməyəcəklər.



**Zabit XƏLİLOV,**
**"Respublika".**